İPƏK YOLU, No.1, 2025, səh.115-120
https://doi.org/10.30546/SI.2025.1.5.036

# FRANS KAFKANIN “MƏHKƏMƏ” ROMANINDA ABSURDLUQ VƏ TOTALİTARİZMİN TƏCƏSSÜMÜ

**Günel Əliyeva**

Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
e-mail: gunel_eliyeva_81@mail.ru

**Xülasə.** Məqalədə Franz Kafkanın “Məhkəmə” romanı tədqiq edilmişdir. Əsər fərdin müasir bürokratik sistemlər qarşısındakı gücsüzlüyünü, günahkarlıq hissini və ədalət axtarışını simvolik kontekstdə təcəssüm etdirərək oxucunu hüquq və ədalət anlayışları üzərində fəlsəfi mülahizələr aparmağa dəvət edir. Kafka bu mövzuları absurdluq elementləri vasitəsilə təqdim edərək əsərdə dərin sosial və mənəvi problemləri müzakirə edir.

**Açar sözlər:** Absurd, magik realizm, bürokratiya, Kafka, “Məhkəmə”.

## THE MANIFESTATION OF ABSURDITY AND TOTALITARIANISM IN FRANZ KAFKA’S “THE TRIAL”

**Gunel Aliyeva**
*Azerbaijan University of Languages, Baku, Azerbaijan*

**Abstract.** The article examines Franz Kafka’s novel “The Trial”. The work embodies the individual’s powerlessness in the face of modern bureaucratic systems, guilt and the search for justice within a symbolic context, inviting readers to engage in philosophical reflections on the concepts of law and justice. Kafka employs elements of absurdity to present these themes, addressing profound social and moral issues throughout the novel.
**Keywords:** Absurd, magical realism, bureaucracy, Kafka, “The Trial”.

## ВОПЛОЩЕНИЕ АБСУРДА И ТОТАЛИТАРИЗМА В РОМАНЕ ФРАНЦА КАФКИ “ПРОЦЕСС”

**Гюнель Алиева**
*Азербайджанский Университет Языков, Баку, Азербайджан*

**Резюме.** В статье анализируется роман Франца Кафки “Процесс”. Произведение отражает беспомощность личности перед лицом современных бюрократических систем, чувство вины и поиск справедливости в символическом контексте, побуждая читателей к философским размышлениям о понятиях права и справедливости. Кафка использует элементы абсурда для представления этих тем, затрагивая глубокие социальные и нравственные проблемы.
**Ключевые слова:** Абсурд, магический реализм, бюрократия, Кафка, “Процесс”.

## 1. Giriş

Yozef K. ilə bağlı qəribə məhkəmə prosesi haqqında açıq-aydın simvolik səciyyəyə malik roman-pritçanı totalitar dövrün salnaməsi kimi oxumaq, onun başına gələnləri insanın antihumanist sistem ilə qeyri-bərabər savaşı kimi şərh etmək “Məhkəmə” əsərinin semantikasının üst qatını təşkil edir: XX əsrdə 1917-ci il oktyabr inqilabından sonra SSRİ-də kommunist rejiminin, İtaliya, Almaniya, İspaniya, Portuqaliya kimi ölkələrdə faşizm totalitar rejimlərinin bərqərar olması Kafkanın əsərinin bu üst qatının həqiqətən peyğəmbərcəsinə gerçəkləşməsinə, sənətkarın hələ 1914-cü ildə bəşəriyyəti “özünüzü xilas edin!” mesajını göndərməsinə misal hesab oluna bilər. Burada təsvir olunan bütün faktları - gözlənilmədən, ağlabatan heç bir səbəb olmadan insanın həbs olunmağı, qorxu hissi, insanın mənəvi və ruhu qıran dağıdıcı ətaləti, müqavimət göstərmək bacarığının yoxa çıxması, vəziyyətdən çıxmaq

üçün özünə güvən hissindən məhrum olub vahimə içində dost-tanış tərəfindən köməyin axtarılması, insana düşmən kəsilən, insan əzablarına biganə məhkəmə sistemi, kağız-kuğuz içində eşələnməkdən başqa heç bir şeyi bacarmayan bürokratiya qanununun və ona xidmət edənlərin satqınlığı XX əsrdə yaşamış, totalitar cəmiyyətlərdə yaşamağa məhkum olmuş və onların hər üzünü görmüş insanlara son dərəcə tanışdır. Təəssüf olsun ki, XX əsrin yaşam tərzinin bu xüsusiyyətləri saysız-hesabsız ədəbi-bədii nümunələrdən yan keçmiş, yalnız Kafka tərəfindən olduğu kimi, bütün çılpaqlığı ilə təcəssüm olunmuşdur.

## 2. "Məhkəmə" əsərində absurdluq və reallığın sintezi

Kafkanın "Məhkəmə" əsəri öz ideya məzmun baxımından bir mənalı şəkildə fəlsəfi roman-pritçadır. Lakin eyni zamanda qəribə bir şəkildə əsər XIX əsr ədəbi-bədii fikrinin də təcrübəsindən yan keçməmiş, realizm dövrünün klassik romanının və fantastik romanın xüsusiyyətlərini özündə əks etdirmişdir. Belə hesab edirik ki, müəllif sövqi-təbii şəkildə istifadə etdiyi magik realizm sayəsində öz məqsədinə nail olmuşdur. Bütün bunlar XX əsr dünya ədəbiyyatının ən nadir nümunələrindən birinin meydana gəlməsi üçün əsas yaratmışdır.

Əsərdə baş bank müvəkkili Yozef K.-ın həyatının bir ili təsvir olunur. Oxucu bir sıra hallarda bundan xəbərsiz olur, xüsusilə bu bank aləmində hökm sürən qayda-qanunlardan, Avstriya imperiyasında məhkəmə sistemindən kifayət qədər xəbərdar olmasa da, bu aləmə dalır, onun əhval-ruhiyyəsi ilə tanış olur, onun atmosferində nəfəs alır. Lakin hiss olunur ki, F. Kafkanın özü bu aləmlə ətraflı şəkildə tanışdır. Odur ki, o, XX əsrin əvvəllərində adi adamların yaşam tərzini realistcəsinə təsvir edir və realist magiyanın qüdrəti ilə oxucunu, məsələn, XX əsrin əvvəllərində Yozef K. tipli məmurların bir qayda olaraq məskunlaşdıqları pansiona daxil olması, orada yaşaması üçün şərait yaradır. Yozef K.-ın işlədiyi bank keçən yüzilliyin səciyyəvi banklarından biridir. Burada heç bir fərdi xüsusiyyəti ilə fərqlənməyən, sanki hamısı Prokrust yatağında normaya salınmış məmurlar və kuryerlər çalışırlar. Müəllifin təsvir etdiyi şəhər, onun yaşadığı, Avstriyanın əyalət şəhəri olan Praqadan heç bir cəhəti ilə fərqlənmir.

Amma bu müəyyən mənada naturalist təsvir təsiri bağışlayan dünyaya Məhkəmə müdaxilə edir. Qəribə burasındadır ki, məhkəmə bir tərəfdən adi məmurların fəaliyyət göstərdikləri adi məhkəmədir, lakin digər tərəfdən taledir, çərxi-fələkdir: bu baxımdan, məhkəmə daim insanların həyatına müdaxilə edir, gündəlik həyatın axarını pozur, dünyanın nizamını dağıdır.

Tədqiqatçılar qeyd edirlər ki, Kafkanın digər əsərlərində olduğu kimi "Məhkəmə" romanında da müəllif bəzi məqamlarda fantastik elementlərdən istifadə edir. Lakin burada sənətkar bir sıra əsərlərindən fərqli olaraq fantastikliyi qabartmır, vurğulamır, onu gerçəkliyin realist təsvirinin içində "əridir", onlar gerçək dünyanın təbii hadisələri kimi dərk olunur. Belə ki, yalnız Yozef K.-ın şahidi olduğu və hər gün təkrar olunan səhnədə icraçı məmur gözətçiləri görür. Əlbəttə ki, onun heç bir səbəb olmadan gözətçilərə işgəncə verməsi mahiyyəti etibarilə fantastik elementdir. Lakin müəllif bu insan məntiqinin qanunlarına sığmayan hərəkəti heç bir

bədii vasitə ilə vurğulamır, onun bir tərəfdən gerçəklikdən fərqlənməsini, digər tərəfdən gerçəkliyin üzvi tərkib hissəsi kimi ona qovuşmasını magik realizmin öhdəsinə buraxır. Oxucu bu hadisəyə münasibətdə həqiqətən bir növ ikiləşir: onu həm təbii hadisə kimi qəbul edir - onu dünyanın fundamental absurdluğunun üzvi tərkib hissəsi kimi qəbul edir, həm də gözlərinə inanmır.

Romanın kompozisiyası klassik prinsip əsasında qurulmuşdur: əsərin başlanğıcından süjet düyünlənir. Müəllif Yozef K.-un yuxudan oyanmasını təsvir edir. Əsər faktiki olaraq onun bütün ideya məzmununu əhatə edən, süjet xəttinin inkişaf istiqamətini müəyyən edən cümlə ilə başlayır: *"Deyəsən, kimsə Yozef K.-nı şərləmişdir, çünki elə bir pis iş tutmasa da, səhər-səhər gəlib onu həbs etdilər"* [3, s.1].

Artıq birinci cümlə əsərin ideya məzmununu ortaya qoyan qeyri-müəyyənliyi ifadə edir. Açıq-aydın təhkiyəçi tərəfindən deyilən bu cümlədə bir qayda olaraq dünyanın altını da, üstünü də bilən allah statusunda çıxış edən müəllifə Yozef K.-ın "deyəsən" (bəlkə də heç belə deyil, bəlkə o, həqiqətən günah işlətmişdir?) kimsə tərəfindən "şərləndiyi" (görəsən bu kimsə kimdir, Yozef K. doğrudan da şərin qurbanıdırmı?) məlum olur. Yozef K. hələ yuxudan durmamış artıq onun bütün gələcək həyat yolu, gələcək taleyi müəyyən olunmuşdur.

Çox güman ki, təkcə təhkiyəçi deyil, bütün ətrafdakılar bu və ya digər şəkildə Yozef K.-ı gözləyən müsibətdən xəbərdardırlar, əks təqdirdə nə üçün "Qrubaxın hər gün saat səkkizə qalmış ona səhər yeməyi gətirən qulluqçusu bu gün gəlib çıxmasın? Nə üçün üzbəüz evdə yaşayan, burnunu hər yerə soxmağa adət etmiş qadın onu belə xüsusi diqqətlə süzür? *"Sahibəsi Qrubaxın hər gün saat səkkizə qalmış ona səhər yeməyi gətirən qulluqçusu da bu gün gəlmədi. Heç vaxt belə olmamışdı"* [5, s.1]. Deməli, artıq süjetin düyünlənməsi mərhələsində F. Kafka bir tərəfdən roman kompozisiyasının XIX əsr realist ədəbiyyatında təşəkkül tapmış prinsipinə (düyünlənmə-kuliminasiya-düyünün açılması) riayət edir, digər tərəfdən artıq birinci cümlədən bu prinsipə köklü dəyişikliklər gətirir.

Klassik düyünlənmənin absurdluğu, məntiqlə qətiyyən bir araya sığmaması davam edir: şəxsiyyətləri məlum olmayan iki keşikçi heç bir sənəd göstərmədən, hansı qurumdan göndərildiklərini doğru-düzgün izah etmədən *("Mən bildiyimə görə, bizim idarə - mən orda yalnız aşağı çinli məmurları tanıyıram - ictimaiyyətin arasında günahkar axtarmır, günahı özü axtarıb tapır, o da keşikçiləri göndərir"*) [3, s.18] faktiki olaraq onu ev dustağına çevirirlər.

Kafkanın "Məhkəmə" əsərində heç kimi Yozef K.-ın nədə günahlandırıldığı maraqlandırmır: görəsən o, nədə ittiham olunur. Səhər tezdən onun yuxudan oyanması dünyanın öz məntiqini itirməsi, rasionallıqdan məhrum olması ilə müşayiət olunur. Əsərdə artıq onu həbs etməyə gəlmiş gözətçilər və məmurlar, hətta Yozef K.-ın özü ilə danışanda belə ona əhəmiyyət vermirlər, öz aralarında söhbət edəndə isə ona cansız bir əşyaya bəslənən bir münasibət nümayiş etdirirlər; sanki Yozef o qədər xırda, o qədər əhəmiyyətsiz bir şəxsiyyətdir ki, ona diqqət yetirməyə dəyməz. Onun sorğu-suala tutulması, dindirilməsi ucsuz-bucaqsızdır - hər yeni məmurla hər şey yenidən başlayır, eyni suallara eyni cavablar sonsuz şəkildə təkrar olunurlar.

### 3. Kafkanın absurd dünyasında bürokratizm və metafiziki günah

Yozef K.-ın ucu-bucağı görünməyən məhkəmə prosesində onun tanıdıqları ilə yanaşı, tanımadıqları, ömründə bircə dəfə də görmədiyi, bəzən sadəcə yoldan keçənlərin hamısı bu və ya digər şəkildə cəlb olunurlar. Onun qonşuları, yoldan keçənlər, ev qulluqçuları, xadimələr, iş adamları, pilləkəndə oynayan qızcığazlar, məmurlar və məşuqələri ittiham olunana kömək etmək vəzifə borcu olan, lakin əlindəki bütün imkanlardan istifadə edib mahiyyət etibarilə ittihamçılara kömək edən vəkillər, keşişlər, rəssamlar, bir sözlə, bütün cəmiyyət Yozef K.-ı ittiham etmək və cəzalandırmaqdan ötrü dəridən-qabıqdan çıxırlar: onların hamısı məhkəməyə tabedirlər, əsl casusluqla məşğuldurlar, onun hər addımını güdürlər, işini çətinliyə salmağa cəhd göstərirlər, onu qorxudurlar, bütün cəmiyyətin üz döndərdiyi, bu qədər adamların arasında tək-tənha qalmış Yozef K.-ı şikara çevirirlər, toplum şəklində onu məhv etməyə can atırlar.

Xristian dininin bəşər nəslinə qəbul etdirdiyi metafiziki ilkin günahdan başqa heç bir günahı olmayan Yozef K. əslində onu izləyən, onu ittiham edən insanların hamısından günahsızdır. Dünyanın absurdluğunun paradoksal nəticəsi kimi meydana gələn həqiqət onunla bağlıdır ki, bu və ya digər dərəcədə günahkar olan insanlar faktiki olaraq heç bir günahı olmayan şəxsi ittiham edirlər. Kafkanın absurd dünyasında ən böyük günah günahsızlıqdır, bu və ya digər səbəbə görə “qara siyahı”ya düşməkdir.

Yozef K. öz evinin yaxınlığında tanımadığı, heç vaxt rast gəlmədiyi damağında qəlyan olan bir gənclə rastlaşır, gözlənilmədən salamsız-kəlamsız, heç bir səbəb göstərmədən ev sahibəsinin qohumu gəlib çıxır - Yozef K. hər tərəfdən müşahidəçilərlə, təqibçilərlə əhatə olunmuşdur. Bəzən oxucuya elə gəlir ki, bütün dünya protaqonisti izləyir, onun günahkar olduğunu sübuta yetirməyə çalışır. Özü də məlum olur ki, onu izləyənlərin hamısı hansı isə bir mistik duyğu ilə Yozef K.-ya qarşı sürülən ittihamlardan xəbərdardılar. Kafkanın qəhrəmanı hər tərəfdən naməlum səbəblərə görə mistik düşmənçiliklə əhatə olunmuşdur. O, bürkülü otağa daxil olanda burada adam əlindən tərpənmək mümkün olmamasını yazır. Yozef K. bir qədər də diqqətlə fikir verəndə otaqdakıların məhkəmə məmurlarından ibarət olması qənaətinə gəlir.

Zaman keçdikcə Yozef yavaş-yavaş dərk etməyə başlayır ki, yer üzündə söykənə biləcəyi, etibar etmək mümkün olan heç bir insan yoxdur; heç kim onun həqiqətən günahsız olduğunun bəyan etməyə qadir deyil. Belə bir vəziyyətdə o, son dərəcə ehtiyatlı olmaq, bütün dünyaya özünü müdafiə etmək qərarına gəlir. O, belə bir qənaətə gəlir ki, bütün dünya ona düşmən kəsilmişdir, hamı onun əleyhinədir.

Yozef K. eyni zamanda görür ki, təqib olunanlar, ittiham edilənlər arasında o tək deyil, onun taleyini bölüşən saysız-hesabsız digər günahsız müttəhimlər də mövcuddur. Bəlkə vəziyyətdən çıxış yolu onlara yol axtarmaq, onlarla həmrəy olmaqla bağlıdır? Ancaq ətrafına diqqətlə fikir verdikdə onların hamısının mənən qırılmalarının, müqavimət göstərmək iqtidarından məhrum olmalarının şahidi olur: hər bir müttəhim öz içinə qapanmışdır, bütün dünyadan təcrid olunmuşdur, ancaq özünə xilas yolu axtarır. Bu əsərdə insan “Yuva”

novellasında olduğu kimi səbəbini üzə çıxarmaq mümkün olmayan metafiziki qorxunun təsiri altındadır, hamıdan, hər şeydən qorxur.

Kafka məhkəmə dəftərxanalarında, əsasən, yuxarı sinfin nümayəndələri olan müttəhimləri təsvir edir. Bununla da müəllif ittihamın total xarakter daşıdığını cəmiyyətin bütün təbəqələrinə qarşı yönəldiyini vurğulamağa çalışır. Əlbəttə ki, Kafka xüsusilə XX əsrin əvvəllərində ictimai siniflər və təbəqələr arasında mövcud olan ziddiyətləri, onların siniflər və təbəqələr arasında kəskinləşməsini görür, lakin dünyada hökm sürən şərin səbəbini qlobal yamanlığın hökm sürməsi ilə, bütün bəşəriyyəti ehtiva etməsi ilə əlaqələndirirdi.

Sonsuz sorğu-suallar, xüsusilə onu əhatə edən insanların öz taleyinə total biganəliyi Yozefi mənən qırır, tədricən daxili qorxu onu müqavimət göstərmək və mövcudluğu uğrunda mübarizə aparmaq qabiliyyətindən məhrum edir. Buna görə də o, öz cəlladlarına qeydsiz-şərtsiz tabe olur. Vəkilin qulluqçusu Leni Yozef K.-ya onun vəkilinin rəyini çatdırır: vəkil də məmurlar kimi belə hesab edir ki, o, özünü həddindən artıq dikbaş aparır, inadkarlıq göstərmək, öz günahsızlığını sübuta yetirməyə çalışmaq lazım deyil, yeganə çıxış yolu bütün irəli sürülən ittihamlarla razılaşmaq, günahı boynuna almaq lazımdır.

Əgər klassik ədəbiyyatda bürokratizm lokal hadisə, dövlətin pozulmasının nəticəsi idisə, Kafkanın əsərlərində, ilk növbədə "Məhkəmə" romanında qlobal hadisə, bütün bəşəri münasibətləri müəyyənləşdirən universal prinsipdir.

Bürokratizmə münasibət Kafkanın dünyada hökm sürən və onun fikrincə, məhz bürokratik münasibətlərin nəticəsi olan şərə də münasibəti fərqli edir: əgər XIX əsr tənqidçi realistlərinin əsərlərində şər "spesifik" keyfiyyətdirsə, Kafkanın əsərlərində - "Proses" romanında magik realizmin konsepsiyasına uyğun olaraq universal prinsipdir; sənətkarın romanlarından belə bir nəticə hasil olur ki, bəşəriyyətin xəmiri yamanlıq mayası ilə yoğrulmuşdur.

Kafkanın əsərində ilk səhifələrdən başlayaraq bürokratiya zir-zibilin toz-torpağı palçığa müncər olunur və çürüməkdə olan varlığı təcəssüm edir. Kafka özünün magik realizm metoduna xas olan bir dəqiqliklə bunu dəftərxanaların və inzibati idarəçiliklə bağlı bütün əşyaların təsvirində sübuta yetirir. Onların hamısı son dərəcə eybəcərdirlər və insanda ikrah hissi oyadırlar: məhkəmənin içi də çölü kimi zibil və çirk içindədir.

Lakin dəftərxanalar Kafkanın "Məhkəmə" əsərində ilk növbədə öz havası ilə diqqəti cəlb edir: burada üfunət iyindən insanın ürəyi bulanır, nəfəsi kəsilir. Dəftərxanaların havası normal adamların nəfəs alması üçün qətiyyən yaramır. Bütün günü bu hava ilə nəfəs alan məmurlar təmiz havaya çıxanda özlərini pis hiss edirlər. Yozef K. isə dəftərxananın dəhşətli atmosferi ilə ilk dəfə rastlaşanda az qalır ki, huşunu itirsin. Eyni vəziyyəti o, məhkəmə rəssamının otağında hiss edir. Halbuki rəssam bu kəsif havada özünü çox rahat duyur. Dəftərxanalardakı bu dəhşətli hava universal simvola çevrilir: sənətkar göstərmək istəyir ki, azad düşüncə, sərbəst fəaliyyət qabiliyyətini qoruyub-saxlamış heç bir insan belə bir atmosferdə yaşaya, nəfəs ala bilməz. Burada ancaq insani ləyaqətini itirmiş məxluqlar özlərini yaxşı hiss edirlər.

**Nəticə.** Bütün yuxarıda deyilənlər söyləməyə əsas verir ki, Kafkanın təkzib etdiyi hadisələr və cəhətlər təsdiq üçün meydan açmır və pessimist səciyyə daşıyır. "Məhkəmə" əsəri insanı sıxıb əzişdirməyə, məhv etməyə can atan bürokratik sistemin bütün eybəcərliyini üzə çıxara bilmiş, magik realizmin bədii imkanlarından səmərəli şəkildə istifadə etməklə ifşa etmişdir. Sənətkarın bürokratiyanı ifşası iki istiqamətdə həyata keçirilir: birincisi, onun romanında bürokratiya, onun məhkəmə sistemi real tarixi şəraitin - daxilən tamamilə çürümüş, normal və sağlam düşüncədən aralı düşmüş Avstriya imperiyasında hökm sürən ab-havanın məhsuludur. İkincisi, bürokratiya metafiziki səciyyə daşıyır, bineyi-qədimdən, bəşər nəsli təşəkkül tapdığı andan dünyada hökm sürən "təbii" ədalətsizliyin, bütün dövrlərdə hökm sürən absurdluğun nəticəsidir.

## Ədəbiyyat

1. Canette E. (1984), Der andere Prozeß. Kafkas Briefe an Felice. Hanser, 127.
2. Kafka F. (2007), Der Prozess. Hamburg, Hamburger Lesehefte Verlag, 248.
3. Kafka F. (2012), Məhkəmə. Qanun, 332.
4. Белобратов А. (2003), Процесс Процесса: Франц Кафка и его роман-фрагмент. Кафка Ф. Процесс. Санкт-Петербург: Азбука классика, 281-316.
5. http://www.kkoworld.com/kitablar/frans-kafka-mehkeme-aze.pdf